

# Elmə, ictimai-siyasi fəaliyyətə həsr olunan ömür

*Elə insanlar var ki, sanki seçdikləri peşə üçün yaranmış, xalqa, millətə və dövlətə verdikləri töhfələrlə əbədiyaşarlıq qazanmışlar. Belə tarixi şəxsiyyətlərdən biri də Əziz Əliyevdir. Ulu öndər Heydər Əliyev demişdir: "Əziz Əliyev Azərbaycan xalqının görkəmli nümayəndələrindən biridir. O, lap əvvəldən qeyri-adi insan idi. O, həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi, Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı".*





Əziz Əliyev 1897-ci il yanvar ayının 1-də İrəvan quberniyasının Hamamlı kəndində tacir ailəsində anadan olmuşdur. Atası Məmmədkərim Kərbəlayi Qurbanəli oğlu kənd ağsaqqalı, anası Zəhra xanım isə İrəvan mahalının nüfuzlu şəxslərindən biri olan İbrahimbəy Süleymanbəyovun qızı idi. 1905-ci ildə ailə İrəvan şəhərinə köçür. Əziz Əliyev hələ uşaq yaşlarından elmə, təhsilə olan marağı ilə yaşıdlarından seçilmiş, 8 yaşından rus-tatar (Azərbaycan) məktəbində ibtidai təhsil almışdır. 1908-1914-cü illərdə atası ilə bərabər Çita şəhərində yaşayan bacısı Göyçək xanımın yanına getmiş və 6-cı sinfə qədər orada təhsil almışdır. 1914-cü ilin yayında İrəvana qayıtmış, 1914-1917-ci illərdə İrəvandakı kişi gimnaziyasında təhsilini davam etdirib. 1917-ci ildə məktəbi əla qiymətlərlə bitirir. Təhsilini davam etdirməyə maddi imkanı olmadığından Bakı milyonçusu, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə müraciət edir. Qısa müddətdə ona 300 rubl maddi köməklik göstərilir. Həmin il Sankt-Peterburqda müsabiqədən müvəffəqiyyətlə keçərək Rusiyanın ən nüfuzlu ali tibb məktəblərindən sayılan Hərbi Tibb Akademiyasına qəbul olunur. Hələ birinci kursda oxuyarkən boş vaxtlarında səpgili yatalaqla mübarizə əleyhinə təşkil edilmiş dezinfeksiya-profilaktika briqadasında işə düzəlir. Birinci kursu müvəffəqiyyətlə başa vuran Əziz Əliyev yay tətilində doğma yurdu İrəvana gəlir. Həmin dövrdə ermənilər Qərbi Azərbaycanda soydaşlarımıza divan tutur, əhalini kütləvi şəkildə qırır, əmlaklarını mənimsəyirdilər. Məqsəd isə azərbaycanlıların bölgədə tamamilə kökünü kəsmək idi. Bütün bunların şahidi olan Əziz Əliyev ailəsini çətinliklə də olsa Naxçıvanın Şərur rayonunun Şaxtaxtı kəndinə aparır. 1918-ci ildə atası vəfat edəndən sonra Sankt-Peterburqda qalıb təhsilini davam etdirə bilmir. Lakin bu vəziyyət onu ruhdan salmır. Əldə etdiyi tibbi kitablarını mütaliə edərək müalicəxanalarda, əczaxanalarda həkim köməkçisi kimi işləyir.

1920-ci ilin may ayında daşnaklar bolşeviklərin köməyi ilə Şərur rayonuna da silahlı hücuma keçərək qırğınlar törədirlər. Şahtaxtı əhalisi, o cümlədən Əziz Əliyevin ailəsi Araz çayını keçərək Cənubi Azərbaycanın Ərəblər (indiki Poldəşt) kəndində yaşamalı olur. O, burada həkim köməkçisi kimi fəaliyyətini davam etdirir. 1920-ci ildə anası vəfat edir. Əziz Əliyev irəvanlı Hacı Cabbar Abbasovun qızı Leyli xanımla ailə həyatı qurur. 1923-cü ilin may ayına qədər kənddə orta tibb işçisi, həkim köməkçisi kimi çalışır. Daha sonra ailəsi ilə bərabər Bakı şəhərinə köçür. İlk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, ümumi şöbə müdirinin müavini, katibin müavini və Respublika Xalq Komissarlığı Şurasının katibi vəzifələrini icra edir. Həmçinin təhsilini BDU-nun tibb fakültəsində davam etdirir. 1927-ci ildə Bakı Dövlət Universitetinin tibb fakültəsini əla qiymətlərlə bitirir və onu savadlı, bacarıqlı gənc mütəxəssis kimi universitetin daxili xəstəliklər kafedrasında saxlayırlar. Əvvəlcə kafedrada ordinator, sonra isə aspirant, assistent və dosent kimi fəaliyyət göstərir. 1930-cu il iyun ayının 19-da Bakı Dövlət Universitetinin tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. 1932-ci ildə Əziz Əliyev həmin institutun rektoru təyin edilir.

Görkəmli dövlət xadimi İkinci Dünya müharibəsindən əvvəl də, sonra da Azərbaycanda səhiyyənin təşkili məsələsinə xüsusilə diqqətlə yanaşmışdır. 1929-cu ildə Xalq Səhiyyə Komissarlığı müalicə şöbəsinin müdiri, Bakı şəhər səhiyyə şöbəsinin müdiri, Xalq Səhiyyə komissarının müavini işləmişdir. Bu illər ərzində Əziz Əliyev Azərbaycanı qarış-qarış gəzmiş, rayon və kəndlərdə olan problemlərlə yerindəcə tanış olaraq onların həlli üçün əməli tədbirlər görmüşdür. Elə həmin il namizədlik dissertasiyasını müdafiə etmişdir. 1934-cü il mart ayının 30-da paytaxtda səhiyyə işlərini yaxşılaşdırmaq məqsədilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri təyin edilmişdir. Bu təyinat ölkə səhiyyəsini gücləndirmək üçün vacib addım idi. 1935-ci ildə Azərbaycanda yüksəkixtisaslı milli tibb kadrlarının hazırlanması prosesini gücləndirmək məqsədilə Əziz Əliyevi yenidən Azərbaycan Dövlət Tibb İnstitutuna rektor vəzifəsinə qaytarırlar. O, gənc kadrları işə cəlb edərək fəaliyyət dairəsini genişləndirir və Azərbaycan dilində dərsliklər, dərs vəsaitləri, monoqrafiya və tövsiyələr yazılmasının təşəbbüskarı olmuşdur. Əziz Əliyevin müəllifi olduğu "Klinik analizlər" kitabı, K.Balakişiyevin "İnsanın normal anatomiyası", Y.Qazıyevin "Ağciyər vərəmi", Ü.Musabəyovanın "Göz xəstəlikləri", Ə.Talışinskinin "Travmatologiya" və digər görkəmli alimlərin əsərləri Azərbaycanın tibb tarixində ən qiymətli nəşrlərdəndir. Bu kitabların işıq üzü görməsində Əziz Əliyevin böyük əməyi olmuşdur. Hətta alim başqa dillərdə olan vacib tibbi vəsaitlərin Azərbaycan dilinə çevrilərək çap olunmasında da böyük rol oynamışdır. Bütün fəaliyyəti dövründə tibb nəşriyyatı yaratmağın, onu təkmilləşdirmək və inkişaf etdirməyin yolları haqqında düşünmüş və institut kollektivinin köməyi ilə "Tibb nəşriyyatı" yaradan alim "Praktiki və nəzəri tibb jurnalı"nın baş redaktoru təyin edilmişdir. 1933-cü ildə isə onun təşəbbüsü ilə Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapına başlanılıb.

Əziz Əliyevin elmi xidmətləri ilə yanaşı, həm də xeyriyyəçilik əməlləri ilə də tarixdə iz salmışdı. O, Azərbaycan Dövlət Tibb İnstitutunda rektorluq fondu yaradır və yığılan hesabla ehtiyacı olan tələbələr üçün geyim aldırarmış ki, bu da tələbələri yaxşı oxumağa həvəsləndirirdi. Eyni zamanda Əziz Əliyev hər il Azərbaycan Dövlət Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılarını Moskva və Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə təcrübə toplamaq üçün göndərərmiş. Onun təbabət sahəsində fəaliyyəti praktik həkimliklə məhdudlaşmırdı. Nəzəriyyəçi alim 87 elmi əsərin müəllifidir. Bu əsərlərin böyük hissəsi təbabətin ayrı-ayrı sahələrinə, bir qismi isə tarixi və siyasi problemlərə həsr olunmuşdu. Çoxşaxəli elmi fəaliyyətə malik Əziz Əliyevin elmi araşdırmaları yaralanma və bədbəxt hadisələr zamanı ilk yardım, İkinci Dünya müharibəsi əlillərinin bərpa müalicəsi, kənd təsərrüfatı və neft sənayesi işçiləri arasında travmatizmin müalicəsi və profilaktikası, Azərbaycan SSR-də travmatoloji və ortopedik yardımın inkişafı, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun fəaliyyətinə və digər aktual məsələlərə həsr olunmuşdur.

1930-1940-cı illərdə Əziz Əliyev respublikada tüğyan edən malyariya və traxomaya qarşı mübarizədə fəal iştirak etmiş və bu dəhşətli xəstəliklərin kökünün kəsilməsinə bütün səy və bacarığını sərf etmişdir. Onun təşəbbüsü ilə xüsusi dispanserlər, xəstəxanalar yaradılmış, həmin illərdə fövqəladə antiepidemioloji respublika komissiyasının sədri olmuşdur.

İstedadlı alim Əziz Əliyev 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi vəzifəsində çalışır. 1941-ci il avqust ayının 25-də Sovet qoşunları İran ərazisinə yeridilir. Beləliklə, Azərbaycan KP MK-nın katibi Əziz Əliyevin rəhbərliyi ilə xüsusi qrup yaradılır. Polkovnik-komissar Əziz Əliyev Təbrizdə yerləşən 47-ci ordunun Hərbi Şurasının üzvü seçilir və ona geniş səlahiyyətlər verilir. Zaqafqaziya Cəbhəsinin komandanı, general-leytenant D.Kozlovun Hərbi Şuraya ünvanladığı tam məxfi məktubunda bildirilirdi ki, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üçüncü katibi Əziz Əliyev 47-ci ordunun Hərbi Şurasının üzvü təyin olunur. Məktubda göstərilirdi ki, hərbi hissələr içərisində təbliğat-izahat işi aparanlar Əziz Əliyevin göstərişlərini rəhbər tutsunlar. Əziz Əliyevlə İranda xidmət etmiş, sonralar yaxın dostlarından birinə çevrilmiş general-polkovnik N.İ.Trufanov xatirələrində yazırdı: "Əziz Əliyev İranda işləyərkən özünü dərin siyasi savada malik bir təşkilatçı kimi göstərdi. İranda bir çox məsələnin həllini Əziz Əliyev öz üzərinə götürürdü".

Təbrizdə, Urmiyada, Ərdəbildə, Mərənddə, Zəncanda Əziz Əliyevlə bərabər çalışan ziyalılarımız - Süleyman Rüstəm, Osman Sarıvəlli, Ənvər Məmmədxanlı, İsrafil Nəzərov, Qulam Məmmədli, Mehtixan Vəkilov və başqaları öz işlərini layiqincə yerinə yetirmişlər. 1942-ci ildə isə Şimali Qafqazda ağır vəziyyət yaranır. Dağıstana yaxınlaşan alman qoşunları Bakıya can ataraq şəhəri ələ keçirməyi, Xəzər dənizində Baş Hərbi Dəniz Bazası yaratmağı qərara almışdılar. 1942-ci il sentyabr ayının 16-da SSRİ Dövlət Müdafiə Komitəsinin iclasında respublikadakı vəziyyət müzakirə edilərək Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi Linkunun vəzifəsindən götürülməsinə və Əziz Əliyevin İran cəbhəsindən Dağıstan cəbhəsinə göndərilməsinə və Dağıstan Vilayət Partiya Komitəsinə birinci katibi, Mahaçqala Müdafiə Komitəsinin sədri təyin edilməsinə qərar verilir.

Vilayət Partiya Komitəsinin birinci katibi və Mahaçqala Müdafiə Komitəsinin sədri, eyni zamanda 58-ci ordunun Hərbi Şurasının, Bakının Hava Hücumlarından Müdafiəsi Şurasının üzvü olan Əziz Əliyevin fəaliyyəti elə ilk aylardan özünü doğrultmuşdur. Məsələn, respublikanın ərazisində partizan dəstələrinin yaradılması, xalq müqavimət dəstələrinin təşkil olunması, qırıcı batalyonların vəziyyəti, Mahaçqala şəhərinin müdafiəsi sahəsində tədbirlər, Dağıstanın nümayəndələrindən kadrlar hazırlanması və irəli çəkilməsi kimi qərarlar yerinə yetirilərək respublikada 13 partizan dəstəsi, bir neçə qırıcı batalyon, 700-dək xalq müqavimət dəstəsi yaradılmışdır. Müdafiə qurğularının inşasına 150 min nəfərdən artıq dağıstanlı göndərilmiş, qısa müddətdə "Komsomolets Daqestana" zirehli qatarının inşası, Kaspiysk zavodunun, Mahaçqala limanının, dəmir yolu şəbəkəsinin təmiri başa çatdırılmış və Zaqafqaziya cəbhəsinə verilmişdir. Həmin dövrdə respublikada işləyən on beşdən çox təxliyə hospitalına müharibə illərində 130 mindən çox yaralı gətirilmiş, onlardan 100 min nəfərə qədəri və ya 76 faizi sağalmışdır. Əziz Əliyevin rəhbərliyi ilə respublikada müdafiə fondu, 1943-cü ilin dekabrında Dağıstan Dövlət Filarmoniyası və 1945-ci ildə SSRİ Elmlər Akademiyasının Dağıstan bazası yaradılmışdır. Onun bilavasitə iştirakı ilə Qadın Müəllimlər İnstitutu və Qadın Pedaqoji Məktəbi, habelə Məktəblər İnstitutu, Uşaq Kitab Nəşriyyatı açılmışdır.

Əziz Əliyevin saymaqla bitibtükənməyən fəaliyyəti nəsillərə örnək, fəxr, qürur mənbəyidir. Akademik M.Topçubaşov xatirələrində yazırdı: "Qəribə oğlan idi Əziz. Təhsildə, əxlaqda, mülayimlikdə, xeyirxahlıqda, işgüzarlıqda tayı-bərabəri yox idi. Təbabətin atası Hippokrat elə bil həkim haqqında andı onun kimilərinə baxıb yazmışdır".

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**